"012 Bakı Public Art Festivalı" çərçivəsində xalq rəssamı Fuad Salayevin "Torpağın nəfəsi" əsəri təqdim edilmişdir

İyulun 13-də Azərbaycan incəsənətinin inkişafı və təbliği ilə məşğul olan "YARAT!" qeyri-kommersiya təşkilatının birinci "012 Bakı Public Art Festivalı" çərçivəsində xalq rəssamı Fuad Salayevin "Torpağın nəfəsi" əsəri təqdim edilmişdir.

AzərTAc xəbər verir ki, metaldan hazırlanmış və əsasən şəbəkəli fiqurdan ibarət heykəltəraşlıq kompozisiyası özlüyündə bir neçə oxunma səviyyəsini təklif edir. Dinamika və formal əlamətlərinə görə əsər yüksəkliklərə can atan təsirini bağışlayır - bu, yerin səthindən qopmağa çalışanların nəfəsi, havası, yüksəliş istiqaməti ilə əlaqəli ola bilər. Heykəltəraşlıq əsərinin şəhər mühitində yerdə (asfaltda) yerləşdirilməyini nəzərə alsaq, onun torpağın nəfəsi ilə bağlılığını söyləmək olar.

Əsərin ideyası müəllifdə Bakıdan çox da uzaq olmayan Lökbatandakı palçıq vulkanlarını müşahidə edərkən yaranmışdır. Püskürən vulkanların özü torpağın canlı nəfəsini xatırladır. Lakin əsərin hazırlanması zamanı heykəltəraşlıq kompozisiyası əlavə assosiativ məna kəsb etmişdir. Məsələn, əsərin çevrəsi rəqsi xatırladır. Dəmir konstruksiyaların rəqsi özlüyündə paradoksdur. Çünki rəqs canlı varlığa xasdır, dəmir isə ağırdır, yöndəmsizdir. Lakin əsərin şəbəkəli formada olması ona yüngüllük, çəkisizlik və hətta oynaqlıq vermişdir. Bundan əlavə, kompozisiyanın əhəmiyyətli xüsusiyyəti onun interaktivliyindədir. İş elə hazırlanmışdır ki, tamaşaçılar kompozisiyanı yalnız "xaricdən deyil, həm də daxildən "oxuya" bilərlər. Əsərə baxış bucağının dəyişməsindən asılı olaraq assosiasiya da dəyişir. Lakin kompozisiyanın "optik" yüksələn vektoru da əhəmiyyət kəsb edir. Hansı tərəfdən yanaşmaqdan asılı olmayaraq tamaşaçının nəzəri yuxarı yönəlir və əsərin dinamik formaları sayəsində yüksələn nöqtəyə cəlb edilir.

Tarixə nəzər salsaq görərik ki, palçıq vulkanlarının sayına görə Azərbaycan dünyada birinci yerdədir. Təxminən 800 palçıq vulkan növünün 350-si ölkəmizdə mövcuddur. Coğrafi terminlə yanaşı, "palçıq vulkanlarına" xalq arasında "yanardağ", "pilpilə", "qaynaça", "bozdağ" da deyilir.

1810-cu ildən indiyədək Azərbaycan ərazisində 50 vulkandan təxminən 200-də püskürmə baş vermişdir. Palçıq vulkanlarının püskürməsi güclü partlayışla və yeraltı səslə müşahidə olunur. Yerin dərin təbəqələrindən bayıra qaz çıxır və dərhal alışaraq yanır. Vulkan üzərində alovun yüksəkliyi 1000 metrə (Qarasu vulkanı) çatır. Tuoroqay vulkanı 1841-ci ildən 1950-ci ilədək 6 dəfə püskürmüşdür. Belə bir fikir mövcuddur ki, Azərbaycanda palçıq vulkanlarının ilk püskürməsi 25 milyon il bundan əvvəl baş vermişdir.

Mənşəyinə görə palçıq vulkanları neft-qaz yataqları ilə əlaqəlidir. Palçıq vulkanlarının mövcud olduğu ərazilərdə (Lökbatan, Qaradağ, Neft Daşları, Mişovdağ və s.) zəngin neft və qaz yataqları aşkar edilmişdir. Bundan əlavə, palçıq vulkanlarının püskürdüyü lava, palçıq və mayedən kimya və tikinti sənayesində, eləcə də farmakologiyada istifadə edilir.

Marsın təbiətini öyrənən NASA geoloqları belə bir qənaətə gəlmişlər ki, Azərbaycanın palçıq vulkanları öz tərkibinə görə qırmızı planetin yaylalarına bənzəyir. İsveçrənin qeyri-kommersiya təşkilatının təşkil etdiyi "Təbiətin yeddi möcüzəsi" beynəlxalq müsabiqəsində Azərbaycanın palçıq vulkanları 5-ci yeri tutmuşdur.

Fuad Salayev həm Bakı, həm də Moskvada təhsil almış tanınmış heykəltəraşdır. O, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Rusiya İncəsənət Akademiyasının fəxri akademikidir. Onun bürüncdən və digər metallardan hazırladığı heykəllər ictimai yerləri bəzəyir.

"012 Bakı Public Art Festivalı"nda həm tanınmış, həm də yeni fəaliyyətə başlayan 21 rəssam iştirak edir. Layihə sentyabrın 1-dək davam edəcəkdir.

"YARAT!" Müasir incəsənət məkanı Moskva biennalesində "PAT vəziyyəti" kurator layihəsi təqdim etmişdir

Moskvadakı "MAP'S" Müasir İncəsənət Mərkəzində III Moskva Beynəlxalq gənclər incəsənəti biennalesi çərçivəsində "YARAT!" Müasir İncəsənət Məkanı "PAT vəziyyəti" kurator layihəsi təqdim etmişdir.

Mərasimi "MAP'S" Müasir İncəsənət Mərkəzinin təsisçisi və direktoru Natalya Kosolapova açaraq mərkəzin fəaliyyətindən və layihələrindən, o cümlədən MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun dəstəklədiyi iri layihələrdən danışmışdır. Onun fikrincə, Azərbaycan rəssamlarının sərgilərinin keçirilməsi dostluq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində çox mühüm layihədir. O demişdir: "Fəxr edirəm ki, biz mədəni körpülərin inşasını həyata keçiririk, çünki bizim üçün dostluq çox əhəmiyyətlidir. Ümid edirik ki, gənc rəssamlarımız birgə layihələrin gerçəkləşdirilməsində iştirak edəcəklər".

Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu razılıqla bildirmişdir ki, Azərbaycanın gənc rəssamları dünyanın mədəniyyət mərkəzlərindən birində - Rusiya Federasiyasının paytaxtında öz əsərlərini sərgiləyirlər. Onun sözlərinə görə, bu, Azərbaycanın çox güclü rəssamlıq məktəbinə malik olduğunu, ölkəmizdə incəsənətin bütün janrlarının inkişaf etdiyini, Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov və dünya şöhrətli digər fırça ustalarının olduğunu diqqətə çatdıran çox mühüm hadisədir. Səfir demişdir: "Ancaq zaman keçir və yeni nəsillər, incəsənətdə yeni cərəyanlar və istiqamətlər meydana gəlir. Çox xoşdur ki, "YARAT!" Gənclər Birliyi Bakıda bir neçə uğurlu sərgi keçirmişdir. Sevindirici haldır ki, bu yaradıcı gənclər birliyi öz həyatını yaşayır, özünə yol açır, sərgilər təşkil edir". Gənc rəssamlar üçün öz yaradıcılığını nümayiş etdirməyin vacib olduğunu vurğulayan Polad Bülbüloğlu sərginin təşkilatçılarına təşəkkürünü bildirmişdir. O demişdir: "Moskvada sərgilərə çox diqqətlə yanaşılır, burada hər sərginin öz tamaşaçısı, rəssamlıqla maraqlanan və yeni istedadlar axtaran sənətşünaslar vardır. Bu baxımdan, Moskva sərgisinin əhəmiyyəti olduqca böyükdür".

"YARAT!" birliyinin icraçı direktoru Fərid Abdullayev qurumun rəhbəri Aida Mahmudovanın adından Azərbaycan gənclərinin sənətini nümayiş etdirmək imkanına görə təşkilatçılara təşəkkürünü bildirmiş, birliyin fəaliyyəti və layihələri barədə danışmışdır. Onun sözlərinə görə, təxminən bir ildir fəaliyyət göstərən təşkilat xeyli iş görmüşdür, "YARAT!" birliyi həm gənc, həm də artıq adlı-sanlı rəssamları dəstəkləyir. O, xüsusi vurğulamışdır ki, istedadlı gənclərin dəstəklənməsinə daha çox üstünlük verilir. F.Abdullayev demişdir: "Bizim gənc rəssamların və təhsil proqramlarının dəstəklənməsinə dair bir neçə müxtəlif proqramımız vardır. Gənc rəssamların dəstəklənməsi üzrə "Artım" adlı proqram çərçivəsində biz bu sərgini həyata keçirmişik. Layihə gənc rəssamlarımızın yaradıcılığını xaricdə göstərmək üçün strateji cəhətdən əhəmiyyətli qərardır. Sərgini bu istiqamətdə ilk addım kimi qiymətləndirmək olar və bu proses davam etdiriləcəkdir".

Sərgidə gənc və perspektivli Azərbaycan rəssamları Cema Səttar, Fidan Seyidova, Nəzrin Məmmədova və Reza Hazarenin işləri nümayiş etdirilir.

Cema Səttar tamaşaçılara "İnsan və tarakanlar" adlı heykəltəraşlıq işini, Fidan Seyidova "Hədsiz laqeydlik" adlı beş dəqiqəlik video, Nəzrin Məmmədova "Etcetera" adı altında silsilə fotoşəkillər təqdim etmişlər. Əfqan mənşəli Azərbaycan rəssamı Reza Hazare "Sürgündə" adlı qrafik işini sərgiləmişdir.

Azərbaycan rəssamlarının özünəməxsus əsərləri sərgiyə gələnlər tərəfindən böyük maraqla qarşılanmışdır.

Sərgi avqustun 12-dək davam edəcəkdir.

Asya HACIZADƏ,
AzərTAc-ın xüsusi müxbiri

Moskva

"Bakı, mən səni sevirəm!" kinolayihəsinin çəkilişləri başa çatmışdır

İyulun 8-də "Bakı, mən səni sevirəm!" filminin çəkilişləri başa çatmışdır. İyulun 12-də isə "Bakı, mən səni sevirəm!" kinolayihəsinin çəkiliş qrupu Moskvaya yola düşmüşdür.

Kinolayihənin mətbuat katibi Şahnaz Abdullayeva AzərTAc-a bildirmişdir ki, çəkilişləri yaz və yay sessiyalarından ibarət kinolayihəyə hər biri 9 dəqiqədən ibarət olan 10 film daxildir.

Kinolayihəyə daxil olan ilk filmi prodüser Yeqor Kançolovski, son ekran əsərini isə digər prodüser - Nadir Maçanov çəkmişlər. Layihəyə yerli rejissorlarla yanaşı, Rusiya, Böyük Britaniya və İtaliyadan da rejissorlar dəvət olunmuşlar.

Filmlərdə Laləzar Mustafayeva, Sənubər İsgəndərova, Məbud Məhərrəmov, Rasim Balayev, Fərhad İsrafilov, Şamil Süleymanov, Elşən Cəbrayılov, Ayşad Məmmədov, Qurban İsmayılov, Rasim Cəfər, Fuad Osmanov, Bəhram Bağırzadə, həmçinin Hollivudun məşhur ulduzlarından Aziya Arcento, İtaliyanın məşhur aktyoru Alessandro Bertaluççi, qardaş Türkiyənin tanınmış aktrisası Eyşan Özzhim, qonşu Rusiyadan bir neçə tanınmış aktyor və aktrisa, Belarus, Litva, Böyük Britaniyadan aktrisalar, Özbəkistanın əməkdar artisti Seydulla Maldaxanov çəkilmişlər.

Filmlərin musiqi prodüseri Rusiyanın məşhur kino musiqisi bəstəkarı Viktor Salaqubdur. Filmlərdə Azərbaycan bəstəkarlarından Siyavuş Kərimi, Vüqar Camalzadənin musiqilərindən də istifadə olunacaqdır.

Yaxın günlərdə Rusiya paytaxtının "Mosfilm" kinokonsernində filmin montaj və səsləndirilmə proseslərinə başlanılacaqdır.

Layihənin rəhbəri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır.

"Bakı, mən səni sevirəm!" kinolayihəsinin prodüserləri Yeqor Kançalovski, Nadir Maçanov və Aleksey Qolubevdir.

Kinolayihənin rejissorları Yeqor Kançalovski (Rusiya), Nadir Maçanov (Azərbaycan), Aleksey Qolubev (Rusiya), Nərgiz Bağırzadə, İlqar Safat, Samir Kərimoğlu, Yavər Rzayev (Azərbaycan), Andrey Razenkov (Rusiya), Aleksander Fodor (İngiltərə), Andre Badalodur (İtaliya).

"Azərbaycanın geoloji möcüzələri" kitablar dəsti elmi ictimaiyyət tərəfindən maraqla qarşılanır

Azərbaycan Milli Elmlər Akademiyası Geologiya İnstitutunun "Azərbaycanın geoloji möcüzələri" adlı kitablar dəsti nəşr olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası Geologiya İnstitutunun mətbuat xidmətindən bildirmişlər ki, nəşrə "Neft haqqında nə bilirik?", "Palçıq vulkanları haqqında nə bilirik?" və "Azərbaycan Respublikasının geoloji irsi" kitabları daxildir.

Nəşrə daxil olan birinci kitabda neftin üzvi maddədən əmələ gəlməsi və karbohidrogenlərə çevrilməsindən tutmuş axtarış, hasilat, daşınma və emalına, eləcə də dünya birliyinin inkişafındakı roluna qədər bütün aspektləri təsvir olunur. Burada xüsusi bölmədə Azərbaycanın neft sənayesinin tarixindəki mühüm hadisələr haqqında məlumat verilmiş, ölkəmizin ilk neft sənayeçiləri barədə qısa bioqrafik arayışlar yer almışdır. Kitab neft haqqında məlumatı olmayan, yaxud az olan geniş oxucu kütləsi üçün publisistik üslubda yazılmışdır.

Kitabın müəllifləri akademik İbrahim Quliyev, AMEA-nın müxbir üzvü Əkbər Feyzullayev və geologiya-mineralogiya elmləri namizədi Məlahət Əfəndiyevadır. Elmi redaktoru geologiya-mineralogiya elmləri doktoru, professor Fikrət Babayevdir.

Palçıq vulkanlarından bəhs edən kitab isə Azərbaycan və digər ölkələrin bu tip möcüzəli təbiət hadisələri barədə məlumat verir. Burada palçıq vulkanlarının əmələ gəlməsi, püskürmə mexanizmi, neft-qaz yataqları və zəlzələlərlə əlaqələri izah olunur. Kitabda həmçinin palçıq vulkanlarının maqmatik vulkanlarla müqayisəsi şərh edilir, vulkan palçıqlarının müalicəvi əhəmiyyətindən bəhs olunur və sadə oxucu kütləsi üçün böyük maraq kəsb edən digər məsələlər də öz əksini tapır.

Kitabın müəllifləri İ.Quliyev, Ə.Feyzullayev və geologiya-mineralogiya elmləri doktoru Adil Əliyevdir. Hər iki kitab Azərbaycan, ingilis və rus dillərində yazılmışdır.

"Azərbaycan Respublikasının geoloji irsi" kitabı isə ingilis dilindədir və ölkəmizdəki nadir geoloji obyektlər haqqındadır. Burada onların elm və insan həyatı üçün əhəmiyyəti barədə məlumatlar böyük maraq kəsb edir. Həmçinin nəşrdə bu geoloji obyektlərin antropogen amillərin təsiri ilə məruz qaldıqları risklər barədə geniş məlumat verilir, onların mühafizəsinin vacibliyi izah edilir.

Kitabın müəllifləri geologiya-mineralogiya elmləri doktorları Tələt Kəngərli və Şıxəli Babayevdir.

Bakıda böyük uğurla keçirilmiş "Eurovision-2012" mahnı müsabiqəsinə həsr olunmuş kitablar dəsti şəhərimizin qonaqları tərəfindən maraqla qarşılanmışdır.

Rusiyanın Cənub Federal Universitetinin alimi Dmitri Ruban Almaniyanın geologiya və paleontologiya üzrə "Zentralblatt" elmi jurnalında "Neft haqqında nə bilirik?" kitabı barədə rəy yazmışdır. Kitabı geniş şərh edən rusiyalı geoloq nəşri həm neftçilər, həm də qeyri-elmi cəmiyyət üçün mühüm vəsait hesab edir.

Təhsil naziri Misir Mərdanov və Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov da rəsmi məktublarla "Azərbaycanın geoloji möcüzələri" kitablar dəsti ilə bağlı təəssüratlarını bölüşmüşlər. Onlar kitablar dəstinin nəşrini Azərbaycanın dünyaya tanıdılması istiqamətində mühüm hadisə və vətənpərvərlik nümunəsi hesab edirlər. Məktublarda kitabların tərtibatı, aydın dili və elmi səviyyəsi yüksək qiymətləndirilir.

AzərTAc

Dünya estradası ulduzlarının Bakıdakı konsertlərinə biletlər satışa çıxarılmışdır

Şəhərin kassalarında Cennifer Lopez, Rihanna və Şakiranın Bakı konsertlərinə biletlər pərakəndə satışa çıxarılmışdır. AzərTAc xəbər verir ki, üç dünya ulduzunun konsertlərinə biletləri "Universal Music Group" şirkətinin Azərbaycan nümayəndəliyi olan "Omnikomo Music Group" şirkətinin **www.omnikomo.com** internet saytında, iyunun 25-dən başlayaraq əldə etmək üçün imkan yaradılmışdır. Konsertlərin təşkilatçı şirkətindən verilən məlumata görə, iyulun 12-dən dünya ulduzlarının konsertlərinə biletlər pərakəndə satışa çıxarılmışdır. Artıq biletləri şəhər kassalarından əldə etmək olar. Cennifer Lopez sentyabrın 23-də, Rihanna oktyabrın 6-da, Şakira isə oktyabrın 14-ü "Baku Crystall Hall"un səhnəsində çıxış edəcəklər.

Dünya şöhrətli ulduzların şouları yüksək keyfiyyətli musiqinin təbliğatı və musiqi piratçılığı ilə mübarizə çərçivəsində keçiriləcəkdir.



Yeni nəşrlər

"Göyərçin"in hədiyyəsi

Uşaqlar böyüklərdən fərqli istək və arzularla yaşayırlar. Belə demək mümkünsə, onlar daha çox azad, müstəqil olmağa can atırlar, baxmayaraq ki, bəzən sərbəstliyin həddini aşanda törətdiklərini hələ dərk etmirlər. Balacalar eyni zamanda, sülhpərvər olurlar. Ona görə də onları daha çox sülhün rəmzi sayılan göyərçinə bənzədirlər.

Yaşlı nəslin də uşaqlıq illərinin sevimli jurnalı olan "Göyərçin"in hər "qanadı"nda gətirdiyi xoş duyğulu soraqlar balalarımızda ruh yüksəkliyi yaratmaqla yanaşı, onların vətənpərvər tərbiyə olunmalarında ailədə valideynlərin, bağçada tərbiyəçilərin, məktəbdə isə müəllimlərin köməkçi vasitəsinə çevrilir. Beləliklə, uşaqlar "Göyərçin"in hər sayını səbirsizliklə gözləyirlər. "Göyərçin"ə yeni "ruh", "qol-qanad" verən müəlliflər də sanki uşaq təbiətlidirlər: onların istək və arzularını hamıdan daha yaxşı bilirlər. Belə müəlliflərdən biri də Rafiq Yusifoğludur ki, baş redaktoru olduğu "Göyərçin"in kitabxanasından davamlı olaraq kitabçalar nəşr etdirir və balaca oxucularını çox da intizarda saxlamır.

Budəfəki buraxılış "Quşlar dünyası" adlanır. Kitabçanın müəllifi, şair Rafiq Yusifoğlu elə ilk səhifədən oxucularına bələdçilik edərək yazır: "Əziz balalar, müəllimlərin, tərbiyəçilərin xahişi ilə quşlar haqqında jurnalımızın ayrı-ayrı saylarında verdiyimiz şeirləri bir yerə topladıq. İstədik ki, həm quşlar haqqında yazılan şeirləri oxumaqla, həm də onların şəkillərinə baxmaqla qanadlı dostlarımızı yaxından tanıya, onları bir-birindən fərqləndirə biləsiniz".

Jurnalın bədii tərtibatında rəssam Fidanla İlqarın quşlara məhəbbəti də özünü göstərir. Quşların vəsfinə həsr olunmuş şeirlər də uşaqların zövqünə köklənib. Göyərçin deyir:

Həmişə insanların
Mənə baxanda gözü,
Ürəklərindən keçir
Sülh kəlməsi, sülh sözü...

Təqdirəlayiq haldır ki, uşaq ədəbiyyatına laqeydliyin hökm sürdüyü bir vaxtda "Göyərçin" jurnalının əməkdaşları həm balacaların bu sevimli dərgisini müntəzəm olaraq nəşr etdirərək onlara çatdırır, həm də belə maraqlı kitabçalar hazırlayırlar.

Məhəmməd SADIQZADƏ,
"Azərbaycan"